

Türkiyənin Antalya şəhərində 20 yaşlı Mahir Çətin kürd dilində danışdığına görə 15 gənc tərəfindən döyülərək öldürülüb.

AzNews.az xəbər verir ki, bu haqda Türkiyənin “Milliyet” qəzeti yazıb.

Məlumata görə, Antalyanın Kaşi rayonunda fəaliyyət göstərən kafelərdən birində iki gəncin kürd dilində danışması kafedə oturan türkləri qıcıqlandırıb və onlar niyə “Türkiyədə kürd dilində danışırsınız?” sualına cavab istəyiblər.

Nəticədə dava düşüb və 20 yaşlı Mahir Çətin hadisə yerində keçinib.

Kafedəki kameralara baxış keçirəndən sonra məlum olub ki, ölən gənc cəmi 10 saniyə zərbəyə dözə bilib.